# Vətənpərvər nəsil Azərbaycanın gələcəyidir

**"Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır".**

**Heydər ƏLİYEV,**
**ümummilli lider.**

Hər bir millətin tərəqqisi onun gələcəyinin necə qurulmasından asılıdır. Gələcəyi isə gənclər qurmalıdırlar. Məhz buna görə də gənclik öz soy-kökünə bağlı, milli-mənəvi dəyərlərə sadiq, əyilməz və tükənməz bir güc sayılır və hər bir millətin mövcudluğu üçün də sağlam gəncliyin olması vacib şərtdir. Çünki ölkədə dövlətçiliyin və müstəqilliyin daha da möhkəmləndirilməsi və gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən və onların aparıcı qüvvəyə çevrilməsindən asılıdır. Məhz bu baxımdan respublikamızda gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin daha da inkişaf etməsinə təkan verir və gənclərimizin cəmiyyətdə təsdiq olunmaları üçün şərait yaradır. Qeyd edək ki, Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin başlıca məqsədi gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyə olunmasıdır. Ona görə də ulu öndərimiz Heydər Əliyev gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasını təhsil sisteminin qarşısında duran ən mühüm vəzifə hesab edərək deyirdi: "İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib, onları gələcəyə hazırlamaqdır. Amma, bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır... Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də öz çıxışlarında uşaq və gənclərin vətənpərvərlik tərbiyəsinin vacibliyini dönə-dönə vurğulayıb, bu işin dövlətin təhsil, gənclər siyasətinin prioritet məsələlərindən biri olduğunu diqqətə çatdıraraq deyib: "Biz böyüməkdə olan nəslin vətənpərvərlik ruhunda, milli-mənəvi dəyərlərimiz ruhunda tərbiyə edilməsinə çox böyük əhəmiyyət veririk. Bu, bizim inkişafımızın əsası, hər bir xalqın inkişafının əsasıdır".

Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Ə.Həsənov KİV-ə açıqlamasında bildirib ki, Azərbaycanın gəncliyi ölkə tarixinin tərkib hissəsidir və gənclər dövlət quruculuğu prosesində aktiv iştirak edirlər: "Əminiklə deyə bilərəm ki, gənclərə baxanda optimist rəyə gəlmək olar. Hazırda ölkəmizdə vətənpərvər nəsil yetişib. Bu, çox önəmli işdir. Bu gün Azərbaycan millətinə, dövlətinə bağlı gənclər formalaşıb. Azərbaycanın gənci dünya elminə yiyələnməlidir, onu mənimsəməlidir və ölkəmizdə tətbiq etməlidir. Dövlətin verdiyi dəstək göstərir ki, gənclər Azərbaycan dövlətini təmsil etməyə hazırdır. Artıq təmsil edirlər. Bu gənclər müstəqillik illərində formalaşıblar. Bu gənclik̇lə gələcəyə ümidlə baxırıq. Azərbaycanın əldə etdiyi uğurlardan biri də vətənpərvər gənclərin yetişməsidir. Azərbaycanın bundan sonrakı inkişafı gənclərin əlindədir. Biz inanırıq ki, gənclər bunun öhdəsindən gələcəklər".

Qeyd edək ki, "Bölgələrdə yaşayan əhalinin böyük əksəriyyəti yalnız öz bölgəsinin inkişafını görür. Ona görə, arzu edirəm ki, çalışın, Azərbaycanın hər yerində olun və görün ki, doğrudan da, Azərbaycan gözəl ölkədir. Həm təbiət müxtəlifliyi, eyni zamanda, mədəniyyət müxtəlifliyi vardır. Bu, bizim böyük üstünlüyümüzdür, böyük sərvətimizdir" deyən Prezident İlham Əliyevin bu tövsiyəsi nəinki gənclərin, yeniyetmələrin ürəyindən xəbər verdi, bütövlükdə Azərbaycanı sevən hər kəsi səfərbər etdi, bir məqsəd ətrafında cəmləşdirdi, "Ölkəmizi tanıyaq" adlı yeni bir layihənin təməlini qoydu. Bu layihə Azərbaycanı yeniyetmələrə təqdim etmək, tanıtmaq və sevdirmək, ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərin dərindən öyrənilməsində, tədrisdə qazanılan nəzəri biliklərin möhkəmləndirilməsində mühüm amillərdən biri olacaq, səfərin xoş təəssüratları şagirdlərin mənəvi zənginliyini daha da artıracaq və Azərbaycanın yeni nəslinin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayacaq bir addım idi. Bu, Prezident İlham Əliyevin təşəbbüsü, tapşırığı və nəzarəti ilə həyata keçirilən, Azərbaycanın sabahını düşünərək reallaşdırılan bir layihə idi. Bu, dövlət başçısının gənclərə həssas münasibətinin, diqqət və qayğısının daha bir nümunəsi idi. Bu səbəbdən də həmin layihə tez bir zamanda diqqət çəkdi, ölkənin ictimai və mədəni həyatında mühüm hadisəyə çevrildi. Beləliklə, Prezident İlham Əliyevin tapşırığına əsasən, Azərbaycanın şəhər və rayonlarının 9-11-ci sinif şagirdlərinin ölkəmizi daha yaxından tanıması, onun tarixini, mədəniyyətini, adət-ənənələrini dərindən öyrənməsi, tarixi-mədəni irsimizə sədaqət və hörmət ruhunda tərbiyə olunması, müstəqillik illərində qazanılan nailiyyətləri öz gözləri ilə görmələri üçün 2014-cü ilin avqust ayından başlayaraq Prezident Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin təşkilatçılığı ilə şəhər və rayon icra hakimiyyətləri tərəfindən bölgələrə maarifləndirici tur-aksiyalar təşkil olundu. "Ölkəmizi tanıyaq" adı altında 4 mərhələdə 7 istiqamət üzrə keçirilən maarifləndirici tur-aksiyalar Azərbaycanın dörd qütbünü bir nöqtədə birləşdirdi. Naxçıvan Muxtar Respublikası da daxil olmaqla, ümumilikdə 74 şəhər və rayondan 5155 şagird maarifləndirici tur-aksiyalarda iştirak etdi. Xalqımızın milli-mədəni irsi ilə tanış olan yeniyetmələr, eyni zamanda, bölgələrimizin müasir simasını əks etdirən Heydər Əliyev mərkəzlərində, tarix-diyarşünaslıq muzeylərində və digər görməli yerlərdə oldular. Maarifləndirici tur-aksiyaların proqramı zəngin və əhatəli idi. Azərbaycanın qədim tarixi yerlərinə ekskursiyalar, maddi-mədəniyyət nümunələri, memarlıq abidələri, dini dəyərlərimizi özündə yaşadan müqəddəs məkanlarla tanışlıq, xalqımızın tolerantlığının təsdiqi olan guşələrə, eyni zamanda rayonların müasir görkəmini əks etdirən yerlərə səfərlər təşkil olundu. Tur-aksiyanın proqramı təkcə bölgələrin sosial-iqtisadi, tarixi-mədəni həyatı ilə tanışlıqla bitmədi. Aksiyalar zamanı məktəblilərin asudə vaxtlarında "Nə? Harada? Nə vaxt?" intellektual oyunları keçirildi, qaliblərə xatirə hədiyyələri təqdim edildi, onlar üçün teatr tamaşaları və konsert proqramları təşkil olundu, tədbirlər çərçivəsində iştirakçılar tərəfindən xüsusi hazırlanmış yerlərdə minlərlə ağac əkildi. Bir sözlə, bu layihə məktəblilərin dünyagörüşünün daha da zənginləşməsinə, gənclərin vətənpərvərlik və azərbaycançılıq prinsipləri əsasında, tarixi-mədəni irsimizə hörmət ruhunda tərbiyə olunmasına böyük töhfə verdi. Tur-aksiyalar zamanı regionlara səyahət edən şagirdlərdə həm də xalqımızın malik olduğu çoxəsrlik tolerantlıq, multikultural dəyərlər barədə hərtərəfli təsəvvür formalaşdı.

Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov KİV-ə bildirib ki, məktəblilərin sağlam ruhda böyüməsi və tərbiyə alması üçün respublikamızda hər cür şərait yaradılıb, gənclər siyasəti dövlət siyasətinin tərkib hissəsi olmaqla prioritet sahələrdən birinə çevrilib: "Prezident İlham Əliyevin tapşırığı ilə respublikamızın şəhər və rayonlarının ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" adı altında keçirilən tur-aksiya məktəblilərin dünyagörüşünün daha da zənginləşməsinə, gənclərin vətənpərvərlik və Azərbaycançılıq prinsipləri əsasında, tarixi-mədəni irsimizə hörmət ruhunda tərbiyə olunmasına böyük töhfə verib. Eyni zamanda, məktəblilər Azərbaycanın müxtəlif bölgələrinin tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri ilə yaxından tanış olub və gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaranıb".

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov isə KİV-ə açıqlamasında deyib ki, doğma Azərbaycanın ayrı-ayrı guşələrinin rayon məktəbliləri tərəfindən daha yaxşı tanınması, o cümlədən onların bölgələrimizin zəngin turizm potensialı, tarixi-mədəni abidələri, muzeyləri ilə tanış olması baxımından maarifləndirici tur-aksiyaların əhəmiyyəti çox böyükdür: "Ona görə də Nəsimi Rayon İcra Hakimiyyəti tərəfindən yeniyetmələr üçün respublikamızın dilbər guşələrində hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgələrinin təşkil olunması nəzərdə tutulub".

Milli Məclisin deputatı Sədaqət Vəliyeva çıxışlarından birində vurğulayıb ki, xalqımızın gələcəyi olan uşaqlara dövlət qayğısı artırılıb və gənc nəslin hərtərəfli inkişafı üçün hərtərəfli şərait yaradılıb: "Təşkil edilən bu aksiyanın məktəblilərin tariximizi, mədəniyyətimizi öyrənmək üçün gözəl bir fürsətdir və bu, ölkəmizdə dövlətinə, xalqına, milli-mənəvi dəyərlərinə bağlı savadlı, vətənpərvər bir nəsli yetişdirir".

Bərdə rayon 4 saylı orta məktəbin müəlliməsi Vüsalə Ağayeva bildirir ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan və hər kəs tərəfindən bəyənilən "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyaları gənc nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsi, onların tərbiyəli, savadlı və vətənpərvər böyüməsi istiqamətində görülən işlərə və şagirdlərin dünyagörüşünün yüksəlməsində göstərilən dövlət qayğısından, həmçinin gənc nəslin hərtərəfli inkişafı üçün təşkil olunmuş layihədir: "Bu layihə gənclərin vətənpərvərlik tərbiyəsinin daha da yüksəldilməsində mühüm rol oynayır. Bu aksiya ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərin dərindən öyrənilməsində, tədrisdə əldə edilən nəzəri biliklərin möhkəmləndirilməsində mühüm amillərdən biridir və səfərin xoş təəssüratları şagirdlərin mənəvi zənginliyini daha da artırır".

8-ci sinif şagirdi Zeynəbxanım Məhərrəmli isə deyir ki, məktəblilər üçün nəzərdə tutulan bu gözəl layihə, şagirdlərin dünyagörüşünü və savadını çox artırır. Ölkəmizin ayrı-ayrı bölgələri ilə yaxından tanışlıq şagirdlər üçün çox maraqlıdır: "Səfərlər və tarixi abidələrlə yaxından tanışlıq biliklərimizin genişlənməsi üçün böyük təkandır. Ölkəmizi daha yaxından tanımaq və öyrənmək üçün biz şagirdlərə yaratdığı şəraitə və diqqətə görə ölkə başçısına dərin təşəkkürümüzü bildiririk. Həmişə dövlətimizə layiq olmağa və ölkəmizi layiqli təmsil etməyə çalışacağıq".

**Müşfiq CƏFƏROV,**
**"Respublika".**

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün.*